# Hərbi Qənimətlər Parkı bizim qürur yerimizdir



**Dənizkənarı Milli Park. Həmişə qələbəlik olan bu gözəl məkan pandemiya şəraitinin şərtlərinə uyğun olaraq, bu gün də qonaqlı-qaralıdır. Burada salınan Hərbi Qənimətlər Parkı sakinlərin sevə-sevə gəldiyi bulvara marağı daha da artırıb. Əsgər və zabitlərimizin döyüş meydanında göstərdiyi misilsiz qəhrəmanlığı, eləcə də müasir silah və texnikalardan istifadə edilərək tətbiq olunan taktiki yeniliklər sayəsində qazanılan tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Sərəncam imzalamış, Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürmüşdür. 5 hektar ərazini əhatə edən park Azərbaycan Silahlı Qüvvələrinin İkinci Qarabağ müharibəsində qazandığı qələbəyə həsr olunub. Unikallığı ilə yaddaşlara həkk olunan bu Parkda Ermənistan Silahlı Qüvvələrinə məxsus, Rusiya istehsalı tank, “Qrad” qurğuları, top və digər müharibə texnikası nümayiş etdirilir.**

Parkın mühəndis-maneələr sistemini ehtiva edən ərazisində 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alcaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərəçarpan və üçcərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş etdirilir. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən ibarətdir.

Parkda döyüş postu və əsgər kazarması, kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir. Burada həmçinin, erməni əsgərlərinin qənimət götürülmüş dəbilqələri və Ermənistan silahlı qüvvələri qoşunlarının mum manikenləri də sərgilənir və ziyarətə gələn hər bir kəsə Azərbaycanın apardığı hərbi əməliyyatların necə diqqətçəkən olduğunu xatırladır. Həqiqətən də Azərbaycan ordusu çox böyük uğura imza atıb. Erməni ordusuna məxsus çox sayda hərbi texnika, tank, ağır silahlar qənimət kimi ələ keçirilib.



Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun “Dəmir yumruq” əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə sözün həqiqi mənasında mövqelərini qoyub qaçdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalarından biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir. Nümayiş etdirilən qənimətlər sırasında KUB zenit kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnikalar saz vəziyyətdədir. Düşmənin 150-dək ağır texnikası, T-72 tankları, piyadaların döyüş maşınları, 2S1 “Qvozdika” özüyeriyən artilleriya qurğusu və digər eksponatlar da parkda özünə yer alıb. Parkın ərazisindəki hər bir element demək olar ki, nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb. Bunlar da diqqətçəkən məqamlardandır.

Park fəaliyyətə başladığı gündən vətəndaşların böyük marağına səbəb olub. Hər gün bura çoxlu sayda insan gəlir. Burada nümayiş etdirilən eksponatları görmək üçün biz də yolumuzu parkdan saldıq.

Parkı ziyarət edərkən iki azyaşlının buradakı eksponatları maraqla izlədiyini gördüm. Onlar yaşlarının az olmasına baxmayaraq, fikir mübadiləsi aparır, nəyisə bir-birilərinə sübut etməyə çalışırdılar. Bu mənzərə mənə maraqlı gəldi, onların fikrini öyrənmək istədim. Yaxınlaşıb salam verdim. Tanış olduq: Bağırov Məhəmməd və Əliyev Əli. “Xoşunuza gəlirmi?” - deyə soruşdum. Onlar birlikdə uca səslə: “Bu park bizim çox xoşumuza gəldi. Biz fəxr edirik ki, Azərbaycanlıyıq, biz fəxr edirik ki, İlham Əliyev kimi müdrik Prezidentimiz var, biz fəxr edirik ki, qəhrəman şəhidlərimiz, qazilərimiz var! Bu gün möhtəşəm parkı sevinclə gəzib müharibədə baş verən hadisələri əks etdirən eksponatları qürurla izləyiriksə, bütün bunun üçün onlara borcluyuq” - dedilər.

Söylədikləri məni çox təsirləndirdi. Bir anlığa xəyala daldım. Fikrimdən keçənləri mən də dilə gətirdim: Ruhun şad olsun ümummilli liderimiz, dünya şöhrətli dahi şəxsiyyət Heydər Əliyev. Bu gün Sizin vaxtilə söylədiyiniz “Mən fəxr edirəm ki, Azərbaycanlıyam” fikrinizi kiçikdən-böyüyə hər kəs belə qürur hissi ilə söyləyirsə, nə xoş bu xalqın halına.

Ziyarətçilərə qoşulub, parkla tanışlığı davam etdirirdim ki, bir müəllimin şagirdlərini başına toplayıb eksponatlar haqqında böyük həvəslə məlumat verdiyini gördüm. Onlara yaxınlaşdım, fikirlərini bilmək istədim. Müəllim dedi: “Biz Bakıda məskunlaşmış Ağdam rayon 149 saylı məktəbin şagird və müəllimləriyik. Bu gün buraya qələbə ilə başa çatan 44 günlük müharibədə əldə olunmuş hərbi qənimətləri şagirdlərə əyani surətdə göstərməyə gəlmişik. Biz təhsil işçisi olaraq fəxr edirik ki, belə qüdrətli Ali Baş Komandanımız və müzəffər ordumuz var. Ordumuzun qələbəsi, qəhrəmanlığı ilə həmişə fəxr etmişik və bu gün də fəxr edirik. Bu hərbi qənimətlər dünyaya bir daha sübut etdi ki, Azərbaycan Ordusu həqiqətən də yenilməzdir, sarsılmazdır. Azərbaycan Ordusu 44 günlük müharibədə haqq savaşı edib, ədalətli müharibə aparıb, öz ata-baba torpaqlarımızı, doğma Qarabağımızı geri qaytarıb. Bəli, düşmənin başını Ali Baş Komandanın dediyi kimi, “Dəmir yumruq”la əzdik və onları Qarabağ torpağından iti qovan kimi qovduq. Şükürlər olsun ki, 30 illik həsrətində olduğumuz torpaqlarımıza qovuşduq. Bu münasibətlə bütün xalqımız, məcburi köçkünlər adından Azərbaycanın müzəffər Ali Baş Komandanına və cəsur, qəhrəman ordumuza təşəkkür edirik. Torpaq uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu önündə baş əyirik”.





Yeri gəlmişkən onu da qeyd edək ki, dünyanın bir çox ölkələrində analoji parklar var. Digər ölkələrdə mövcud olan hərbi qənimət parkları arasında ən önəmli yerlərdən birini Çin Xalq Azadlıq Ordusunun Muzeyi tutur. Muzeyin böyük bir bölümü məhz ələ keçirilmiş hərbi qənimətlər üçün ayrılıb. Burada Çinin Yaponiya ilə 1937-1945-ci illərdə apardığı müharibədə, 1967-ci il Çin-Hindistan sərhəd münaqişəsində, 1969-cu ildə SSRİ ilə Damansk adası ilə bağlı baş vermiş silahlı toqquşmada, Koreya müharibəsində, Tibetdə, Tayğunda, Birmada, Vyetnamda apardığı hərbi əməliyyatlarda ələ keçirdiyi qənimətlər sərgilənir.



Böyük Britaniyada isə məşhur İmperiya Müharibə Muzeyi (İmperial War Museum) fəaliyyət göstərir. Burada da müxtəlif hərbi qənimətlər, maketlər və mulajlar sərgilənir. Lakin sözsüz ki, indiyədək hərbi qənimətlərin sərgiləndiyi ən məşhur hərbi qənimətlər parkı İkinci Dünya müharibəsi zamanı sovet ordusunun ələ keçirdiyi hərbi qənimətlərin Qorki şəhərində (hazırkı Nijni Novqorod) sərgiləndiyi qənimətlər parkı olub.

Vurğulamaq lazımdır ki, bu gün Bakının Dənizkənarı bulvarında salınan Qənimətlər Parkı yaddaşlara həkk olunan 44 günlük müharibədə qazanılan tarixi Qələbənin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə sərgilənən eksponatlar Azərbaycana zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa imkan yaradır. Çünki burada 44 günlük müharibənin demək olar ki, bütün ssenariləri əks olunur. Dövlət başçısı cənab İlham Əliyevin dediyi kimi: “Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu qələbələri əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər”.

Bu Azərbaycan üçün eyni zamanda böyük psixoloji üstünlükdür. İllər idi ki, ermənilər öz ordularının məğlubedilməzliyi ilə bağlı mif yaradırdılar. Ali Baş Komandanımız İlham Əliyev bunun doğru olmadığını üzə çıxardı və ermənilərin necə mənfur millət olduqlarını bütün dünyaya sübut etdi. Hazırda ermənilər buna görə də böyük sarsıntı yaşayır.

Bəli, bu gün bizim seyr etdiyimiz, tamaşasına gəldiyimiz park açıq səma altında muzeyi xatırladır. Burada nümayiş etdirilən eksponatları isə həyəcansız izləmək mümkün deyildir. Düşünürsən ki, bu qənimətlər asanlıqla əldə olunmayıb, Azərbaycan əsgərinin qanı, canı bahasına mümkün olub. Əminəm ki, Azərbaycanın gözəlliyini görmək üçün bu ölkəyə ayaq basan hər bir əcnəbi bizim qürur yerimiz olan bu parka baş çəkəcək, xalqımızın qəhrəmanlığının şahidi olacaqdır, çünki, buradakı silah-sursat adi taxta, dəmir parçası deyil, Azərbaycanın əsgərinin qələbəsinin, şücaətinin rəmzidir.

Bu həm də torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizə əbədi xatirədir!..

**Nurəngiz ADİLQIZI,**
**“Respublika”.**

Respublika.- 2021.- 29 aprel.- S.7.